# Azərbaycan Ordusu işğal altında olan torpaqlarımızı azad etməyə qadirdir

***Sosial Tədqiqatlar Mərkəzinin (STM) "İnam indeksi" nəşrinin xüsusi buraxılışında Prezident İlham Əliyevin cari ilin ikinci rübündəki fəaliyyətinin ictimai qiymətləndirilməsinə dair elmi təhlil yer alıb. Analitik hesabatda ölkə Prezidentinin fəaliyyətinin prioritet istiqamətlərindən birini ordu quruculuğunun təşkil etdiyi bildirilib. Bunun təsadüfi olmadığı, Silahlı Qüvvələrə xüsusi diqqətin ayrılmasının hər şeydən öncə ölkəmizin müharibə şəraitində yaşaması ilə bağlı olduğu vurğulanıb.***

> *Biz hər sahədə, beynəlxalq müstəvidə güclənirik, güclənməliyik - ölkə daxilində sabitlik, iqtisadi sahədə islahatlar, sosial problemlərin həlli, regionların inkişafı və nəhayət, ordu quruculuğu. Ona görə bu yolla biz gedəcəyik, ordumuzu bundan sonra da gücləndirəcəyik, nə qədər lazımdırsa, orduya o qədər vəsait ayıracağıq.*
>
> **İlham ƏLİYEV**
> **Azərbaycan Respublikasının Prezidenti**




Keçirilmiş sorğunun nəticələri əhalinin ordu quruculuğu istiqamətində Azərbaycan Prezidentin fəaliyyətini kifayət qədər yüksək qiymətləndirdiyi aydın göstərir. Belə ki, rəyi soruşulanların 70,7 faizi, yəni mütləq çoxluğu dövlətimizin başçısının ordu quruculuğu istiqamətində gerçəkləşdirdiyi tədbirlərin çox səmərəli olduğunu düşünür.

Hesabatda ordu quruculuğu istiqamətində səmərəli iş, eyni zamanda, ölkə rəhbərinə olan inam və etimadın artmasını şərtləndirən əsas amillərdən biri kimi dəyərləndirilir. Belə ki, Prezidentə olan inam və etimadının gücləndiyini bildirən respondentlərin 82 faizi ordu quruculuğu istiqamətində dövlət başçısının fəaliyyətini çox müsbət qiymətləndirir.

Dövlətimizin başçısının fəaliyyətində ordu quruculuğuna mühüm önəm verilməsi ölkə rəhbərinin müxtəlif vaxtlarda bu məsələ ilə bağlı vurğuladığı fikirlərindən də aydın görünür. Məsələn, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev bu il iyunun 25-də Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin açılışından sonra nazirliyin rəhbər işçiləri ilə keçirdiyi operativ müşavirədəki çıxışında son illər ölkəmizdə ordu quruculuğunda yüksək inkişaf müşahidə edildiyi, hərbi hissələrin tikintisində Azərbaycan standartlarına üstünlük verildiyi, xidmətin yüksək səviyyədə aparılması üçün bütün sosial imkanların yaradıldığı barədə ətraflı danışıb: "Şəxsi heyətin xidmət şəraitinin yaxşılaşdırılması ilə bərabər, zabitlərin məişət problemləri də həll olunur. Orduda 20 il qüsursuz xidmət edən zabitlərə mənim göstərişimlə dövlət tərəfindən mənzillər verilir və bu proqram icra edilir. Bu, əlbəttə ki, böyük vəsait tələb edir və biz bu vəsaiti ayırırıq. Bu günə qədər 1700 zabit bu proqramla əhatə olunub və onlara yaxşı mənzillər verilibdir. Mən bu yaxınlarda göstəriş verdim ki, bu ilin sonuna qədər əlavə 419 zabitə dövlət tərəfindən mənzillər verilsin. Beləliklə, bu günə qədər olan vəziyyətə görə, bu proqramla əhatə olunan zabitlərin maksimum sayı təmin edilib. Mənə verilən son məlumata görə, təqribən 200-dən bir qədər çox zabit hələ növbədədir. Onların da mənzil problemləri həllini tapacaq. Hesab edirəm ki, bu da dünya praktikasında çox nadir hallarda müşahidə olunan mənzərədir. Burada da Azərbaycan ön sıralardadır, yeniliklər göstərir. Çünki Vətənə sədaqətlə və qüsursuz xidmət edən hərbçilər dövlət tərəfindən gərək yüksək təminatla əhatə olunsunlar. Hər bir insanın həyatında mənzil problemi çox önəmli məsələdir, biz onu da həll edirik. Ordumuza göstərilən qayğı bu məsələlərlə bitmir. Hərbçilərin əməkhaqları müntəzəm olaraq qaldırılır. Xüsusilə deyə bilərəm ki, fərqlənmiş hərbçilər mükafatlandırılır. Bu da təbiidir".




Silahlı Qüvvələrin Ali Baş Komandanı nitqində diqqətçəkən bir məqama da toxunub. Bildirib ki, beynəlxalq hüququn normalarının pozulması hər bir ölkəni öz hərbi potensialının gücləndirilməsinə vadar etməlidir və Azərbaycan buna artıq çoxdan başlayıb. Məhz bunun nəticəsində hazırda Azərbaycan Ordusu çox yüksək peşəkarlığa malikdir: "Eyni zamanda, mənim göstərişimlə son illərdə ordumuzun silah-sursat, texnika ilə təchizatı da təşkil edilir. Bu məqsədlər üçün milyardlarla dollar vəsait xərclənib. Bu gün texniki təchizat baxımından Azərbaycan Ordusu güclü ordular sırasındadır. Bizim zirehli texnikamız ən yüksək standartlara cavab verir. Bizim hava hücumuna qarşı müdafiə sistemimiz müasirləşib və bu hərbi hissənin vəzifəsi məhz bundan ibarətdir. Biz bir neçə ölkədən hava hücumuna qarşı ən müasir qurğular əldə etmişik. Onların Azərbaycanda – bizim coğrafiyada bir-birinə inteqrasiya edilməsi də asan məsələ deyil. Çünki bizim hava hücumuna qarşı müdafiə sistemlərimiz, – bu, sirr deyil, bu məlumat artıq açıqlanıb, – həm Rusiya istehsalıdır, Belarus istehsalıdır, İsrail istehsalıdır, eyni zamanda, sovet vaxtından qalan qurğulardır və onlar da modernləşdirilib. Onları bir-birinə elə inteqrasiya etmək, elə yerləşdirmək lazımdır ki, bizim bütün strateji obyektlərimiz havadan qorunsun. Əlbəttə ki, böyük peşəkarlıq və vəsait tələb edir. Bizim vəsaitimiz olmasaydı, bunları haradan alacaqdıq…".

Azərbaycan ordusunun qüdrəti Aprel və Tovuz döyüşləri, habelə Günnüt əməliyyatı zamanı özünü bir daha təsdiqlədi. Tovuz rayonu istiqamətində baş verən şiddətli döyüşlər ordumuzun həm canlı qüvvəsinin, həm də hərbi texnikasının gücünü bir daha sübut etdi. Bədxah düşmənin artilleriya atəşi Silahlı Qüvvələrimiz tərəfindən layiqincə cavablandırıldı. Azərbaycan dövlətinin sürətli inkişafını gözü götürməyən namərd düşmən fitnə-fəsada, hiylələrə əl atsalar da, onların bu cəhdləri hər zaman olduğu kimi, puça çıxdı. Başqa cür də mümkün deyildi. Çünki artıq Azərbaycan Ordusu güclüdür və lazımi texnika ilə tam təmin edilibdir.

Yeri gəlmişkən, baş verən döyüşlərdə Azərbaycan Ordusu 12 igid oğlunu şəhid versə də, onların qanı yerdə qalmadı. Düşmənə ağır zərbələr endirildi, qisas layiqincə alındı.

Şəhid olanlar arasında general-mayor və polkovnik olması bir daha sübut etdi ki, Azərbaycan Ordusunda yüksək rütbəli hərbçilərimiz əsgərlərlə çiyin-çiyinə döyüşür. Onlar torpaqlarımızın hər bir qarışını belə mənfur düşmənə vermədi və bundan sonra da məhz belə olacaq.

İstər Aprel, istərsə də Tovuz döyüşləri ilə bağlı diqqətçəkən bir məqam da o oldu ki, həmin əməliyyatlar xalq-dövlət-ordu birliyinin monolitliyinin nümayişinə çevrildi. Prezident İlham Əliyevin səsləndirdiyi "Mən hesab edirəm ki, son günlər ərzində baş vermiş toqquşmalar və qanlı döyüşlər Azərbaycan dövlətinin, ordusunun gücünü, xalqla iqtidar arasındakı birliyi bir daha göstərdi" fikri də xalqımız tərəfindən dövlətimizin başçısının birlik, həmrəylik amilinə verdiyi dəyərin ən bariz nümunəsi kimi qiymətləndirildi. Bax, bu amil erməni işğalçılarını bu gün də təşvişdə saxlayır. Bax, hazırda düşmənin yuxusuna haram qatan da xalq-dövlət-ordu monolit birliyidir.

Yeri gəlmişkən, burada bir məqamı da xatırlatmaq istərdim. Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyev Tovuz döyüşlərində şəhid olan polkovnik İlqar Mirzəyevin oğlu Elvinlə telefon danışığı zamanı "Bizim bütün gənclərimiz qəhrəmanlarımıza oxşamalıdırlar. Onların həyatı, torpaq, Vətən uğrunda göstərdikləri şücaət, qəhrəmanlıq hər bir gənc üçün nümunə olmalıdır. Biz fəxr edirik ki, Azərbaycan xalqı, Azərbaycan torpağı belə övladlar yetişdirib" deyərək Vətən yolunda canından keçən, sağlamlığını itirən qəhrəmanlarımızdan böyük hörmətlə, fəxrlə danışması igid döyüşçülərimizdə iftixar hissi yaratdı. Dövlət başçımızın həmin fikirləri, həm də gənclərimizin Vətən, torpaq duyğularını daha da qanadlandırdı. Arxa cəbhədə Azərbaycan gənclərinin orduya dəstək üçün nümayiş etdirdikləri birlik yürüşü isə bir daha göstərdi ki, ölkəmizdə milli mənəviyyat, vətənpərvərlik hissi yüksəkdir. Azərbaycan xalqı hər an öz ərazi bütövlüyünü qorumaq, işğal altında olan torpaqlarını geri qaytarmaq gücünə qadirdir.

Bu gün Azərbaycanın suverenliyi, ərazi bütövlüyü beynəlxalq səviyyədə də dəstəklənir və azğın düşmənin törətdiyi təxribatlar qəti şəkildə pislənilir. Ali Baş Komandan İlham Əliyevin uzaqgörən siyasəti, dövlət və ordu quruculuğu istiqamətində atdığı qətiyyətli addımlar xalqı onun ətrafında bir yumruq kimi birləşdirir. Dövlətimiz güclü, rəşadətli orduya malikdir. Xalq-dövlət-ordu birliyini, Prezident-xalq vəhdətini əks etdirən bu möhkəm bağlılıq Azərbaycanın bütün vətəndaşları üçün qürurvericidir. Vətən qarşısında öz borcunu dərk edən Azərbaycan övladları şərəflə ordu sıralarına qoşulmağı səbirsizliklə gözləyirlər. Onlar Prezident İlham Əliyevin hər bir qərarını dəstəkləyir və onun icrasına daim hazır olduqlarını bildirirlər.

*Vaqif BAYRAMOV,*
*"Xalq qəzeti"*